# Borçalı xalçaları

Borçalı xalçalarına dünyanın hər yerində rast gəlmək olar. Bunlar Azərbaycan mədəni irsinə açar olmaqla, həm də ötənlərdən bizə yadigardır. Həmin xalı-xalçanın adı qədim Borçalı toponimi ilə bağlıdır. O yerlərdə tərəkəməçiliyin yaşı çox-çox qədimlərə gedib çıxdığı kimi, bədii toxuculuğun da Borçalıda qədim tarixi var. Borçalıda saxsı, metal, ağac və daş oymalarda, tikmələrdə, zərğərlikdə, şəbəkədə bəzəkvurma ilə yanaşı, xalçaçılıqda da həm texniki, həm də bədii sarıdan seçilibdir. Cəhrə, həvə, kirkid, cünsü və hörəngələn vasitəsi ilə hazırlanan palaz, kilim, şəddə, vərni, zili, cecim, xurcun, heybə, taxtbaşı, yəhərüstü, çuval, məfrəş, çul, çətən, həsir, duzluqlardan başlamış qullabı və dolama ilməynən həslə gələn xovlu xalılara, gəbələrə qədərki sənət incilərimiz evlərdə, qonaq otaqlarımızda, yaylaq və dəyələrimizdə içərini isti saxlamaqla, səs-küyün qabağını almaqla yanaşı, həm də göz oxşayır...

Borçalı xalçaları Gəncə-Qazax qrupunun ayrıca qoludur. Xalçaşünaslar Borçalı xalçalarının zəngin koloritə malik həndəsi, qarmaqlı, dilikli-itibucaqlı, şux boyalı, qızılı-sarı, yaşıl, ərtavanı rənglərlə zəngin, qullabı və dolama ilməli, orta biçimli, həm də qalın və möhkəm olduğunu, necə deyərlər, öz urvatı ilə seçildiyini yaxşı bilir. Ustad xalçaşünas Lətif Kərimov elə bu səbəbdən "Borçalı xalçaçılıq məktəbi" ifadəsini işlətməkdən çəkinmirdi. Borçalıda Sarvan, Qızılhacılı, Sadaxlı, Muğanlı, Qaçağan, Kürdlər, Baydar, Bəylər, Kəpənəkçi, Daştəpə, Qaratəpə, Kosalı, Nəzərli, Candar, Qaraçöp, Ləmbəli, Arıxlı, Kolayır, Faxralı, Darvaz, Kosalar, Səfərli, Gəyliyən, Qarabulaq, Qəmərli, Hamamlı, Yırğançay və qeyri adıbəlli xalça məntəqələri hələ nə vaxtdan mövcud olub.

Borçalı qoyun-quzusunun məxməri yunundan, ələlxüsus da qumral quzu yunundan toxunan xalılarımız davamlı olub, xovu didilsə də sədəf təki parıldayıbdır.

Bu qəbildən gah "Borçalı", gah da "Damğalı" adlanan xalça dünyaca məşhurdur. Biri Nyu-Yorkda, ABŞ-ın Metropoliten muzeyində (Cosef Makmillanın kolleksiyası), biri də Almaniyanın Münhen şəhərindəki muzeydə (Bernhaymerin şəxsi kolleksiyası) saxlanan eyni adlı xalımızın toxunma tarixini xalçaşünaslar, o sıradan Lətif Kərimov, Nəcibə Abdullayeva kimi mütəxəssislər XVIII yüzilə aid edirlər. Xalça albomlarında dəfələrlə şəkli verilmiş bu xalı orta ölçülüdür, qoçbuynuzu yelənlə bəzədilib, arasahəsi geniş, rənglərisə şux və dolğundur. Xalı-gəbə ən çox onunla səciyyələnir ki, al qızılı yerliyində ardıcıl təkrar olunan sürmeyi rəngli yeddi xonça yerləşdirilib; Xalçaşünas Nəcibə Abdullayeva bu xalını çox qiymətli sənət incisi sayaraq, onun iri damğa elementləri ilə maraq kəsb etdiyini





söyləyir. Bizcə, çeşnidəki damğa elementi günəşin rəmzidir və bü, qədim türklərdə çox yayılmış Göytanrı inancıyla ilgilidir.

Xatırladaq ki, Berlin incəsənət muzeyindəki "Damğalı" kilimini də Borçalı xalçaçılıq məktəbinin bir incisi saymaq olar.

XVIII yüzildə Borçalıda toxunmuş çeşnilərdən biri də Budapeşt Dekorativ Sənət Muzeyində saxlanan "Çobankərə" xalısıdır. L. Kərimovun söylədiyinə görə, bu çeşnidən olan xalılarda quş, dəvə təsvirləri və "məktəb ocağı deyilən" elementə tez-tez rast gəlinir.

Gəncədəki Sah Abbas məscidinin divarını bəzəyən "Qaraçöp" çeşnili xalı da XVIII əsrdən qalmadır.

XIX yüzildə Borçalıda xalçaçılığın daha da irəli getməsinə dair əlimizdə tutarğalar çoxdur. O mahalda qoyunçuluğun, ipəkçiliyin, yun, pambıq əyirmənin inkişafı, xalçaçılığın da genişlənməsinə təkan verirdi. Ən maraqlı cəhət ondadır ki, Borçalı xalçalarında, deyilənə görə, qadınların saçından, atın yalından, ya quyruq tükündən də ilmə vurularmış. Sözsüz ki, bunun öz rəmzi, öz mənası olmamış deyil. Borçalının dağları, bağları və ormanlarındakı rəngbərəng bitkilər, ağaclar, çiçəklər təbii boya məsələsinin uğurlu həllinə imkan yaradırdı. Borçalı yununa dünya bazarında həmişə böyük maraq olub. Hələ 1886-cı ildə Tiflisdə təşkil olunmuş Qafqaz yun sərgisində Sarvan kəndindən gətirilmə Borçalı qumral qoyunuyla tuş qoyunun qarışığından alınan "dönmə" yun və 1889-cu ildə yenə bu yöndəki sərgidə Borçalı sakini İsmayıl Mürşüd oğlunun gətirdiyi ipəkdən toxunma cecim gümüş mükafata layiq görülmüşdü. XİX yüzilə aid bir neçə Borçalı xalısı Azərbaycan Dövlət İncəsənət Muzeyində və eləcə qeyri saxlanclarda indinin özünəcən qorunmaqdadır.

Borçalı xalçasının naxışlarında qədimdən gəlmə mifik izlər indinin özündə də güclüdür.

Bu baxımdan "Ziynətnişan", yaxud "Zeynənişan" çeşnili xalı daha maraqlıdır. Xüsusən də özünün dördkünc gölüynən. Lətif Kərimovun duyumuna görə, həmin göl – keçədən ayaqqabı geymiş, başına qoyun dərisindən züllə papaq qoymuş bir igidə işarədir. L.Kərimovun fikrincə, belə təsvirlərə IX – X yüzillərin qəbirüstü kitabələrində də tez-tez rast gəlinir.

Onu da əlavə eləyək ki, həmin rəsmdə məhz Borçalı qarapapaqlarının da təsviri görünməkdədir. Bu baxımdan L.Kərimov "Papaqlı" çeşnisini Borçalı qarapapaqlarının çeşnisi saymaqda haqlıdır.

Bizim İncəsənət Muzeyində saxlanan "Qaraqoyunlu" xalısında adam və at, Faxralı xalısında sırğa, "Qaraçöp" çeşnisində ağac, şamdan, "Qarayazı" xalısında güzgü, "Qaçağan"da həndəsi naxışlar – onların sənət özünəxaslığını təsdiqləyir.

Məşhur Borçalı çeşnilərindən biri də "Qurbağalı"dır. Bu çeşniyə şöhrət gətirən ondakı totem ruhudur. Hələ qədimdən xalqımızın qurbağanı müqəddəsləşdirdiyi, tunc dövründə, yəni miladdan öncəki minillərdə qəbirlərə bağa çanağı qoyulduğu, qədim Gültəkin



qəbrinin üstündəki daşda həkk olunan çanaqlı bağa təsviri bəllidir. Bu xalı məhz həmin mifik dünyabaxışın ifadəsidir. Azərbaycan İncəsənət Muzeyində də XIX yüzildə Borçalının Faxralı, Görarxı, Arıxlı obalarında toxunmuş bir neçə "Qurbağalı" çeşnisi üstündə neçə xalı-xalça var.

Borçalı xalçaçılıq məktəbinin şah əsərlərindən sayılan "Ləmbəli"nin XIX əsrə aid çeşnilərində gölün ortasındakı motiv də çanaqlı bağa və yaxud qurbağa ilə bağlıdır. "Ləmbəli"nin yeləni adətən bəyaz olur. Həm də əksər Borçalı xalılarından fərqli olaraq, "Ləmbəli" qismən böyük ölçüdə toxunurdu.

Qaçağan, Kirəc Muğanlı, Qaş Muğanlı və başqa obalarda toxunmuş, "Qaçağan" adı ilə bəlli olan gəbə-xalçanın ortası bir-birini tamamlayan rombvari göllərdən ibarətdir. Hər küncdəsə gölün çərəyi şəklində motivlər təkrar olunur və bu da çeşnini zənginləşdirir.

"Qarayazı" xalılarının əsas xüsusiyyətisə – onlardakı ifadə tərzidir. Həmin çeşnilərdə durna, qu quşu, inək, qoyun, tazı, ceyran motivləri bilinir. Çeşnilərin birində tən ortadakı gölün asimanında süzən iki cüt qu quşu təsvir olunub. Bu quşlar bəzək də olsa, məcazi anlam daşıyır. Aşağıda isə uzunsov kitabə oxunur. Haşiyə sadədir, işıqlı zolağısa xalçanın qırmızı yelənini açmış olur. "Qarayazı" adıyla alınıb-satılan bu xalça çox vaxt "Quşçu" kimi də tanınır. Ümumiyyətlə, Borçalı – Qarayazı bölgəsinin Kürüstü obalarında toxunmuş xalı-xalça "Dəmirçi-Həsənli" adı ilə bəlliydi.

Qullabı ilmə-düyün texnikası, naxış üslubu, rəng uyarlığı ilə seçilən "Qaraçöp" xalçaları da Borçalı yarımqrupuna aiddir. Yor Muğanlı, Düzəyrəm, Ləmbəli, Keşəli, Tüllər, Qazlarda toxunmuş xalçalar "Qarabirçək" adı ilə də tanınır. "Qaraçöp" çeşnilərinin qarmaqlı görkəmi bir çox iri elementlərdən ibarətdir və bilicilərin dediyinə görə, bunlar yalnız "Qaraçöp" çeşnilərinə xasdır. Ortadakı gölün qıraqlarında qoçbuynuzu gəzmə quyrumlar gedir. Əsas rənglər ot-yaşıl, al-qırmızı, qızılı-sarı, ağ və qaradır. Bu tip çeşnilərdə yaşıl rəng daha çox gözə çarpır. Elə bu səbəbdən xalçaçılar arasında belə xalçalar "Yaşıllı" adıyla da məşhurdur. Beləsinin "Qırxquyrum", "Çiyinli", "Maralli", "Üç göl", "Dörd göl", "Yeddi göl" kimi çeşniləri də var. Qaraçöp xalçaları, texniki-bədii baxımdan L.Kərimovun da qiymət verdiyi kimi, yüksək səviyyəli xalçalar sırasından sayılır.

...Qədim Borçalının sirli-sehirli bir dünyası da varmış – o da xalı-xalçadır. Hər çeşnidə, hər naxışda, ilmə-düyündə, əriş-arqacda ana-bacılarımızın qəmi-kədəri, sevinci, arzu-istəkləri, ağbirçək-ağsaqqallarımızın alxışı, oğul-qızlarımızın qeyrəti, üstündə gəzdiyimiz doğma torpağın ətri duyulur.

*Almaz Yurdsevər*

